# Milli faciəmizin dramatik həlli

**Leyla Nəsib qızı Allahverdiyeva**
*filologiya üzrə fəlsəfə doktoru,*
*Sumqayıt Dövlət Universiteti*
**E-mail:** fidan_abdurahmanova@mail.ru

**Rəyçilər:** filol.ü.f.d., dos. Q.N. Süleymanova,
filol.ü.f.d., dos. F.N. Abdurahmanova

**Açar sözlər:** faciə, pyes, dramatik, tarix, janr, ədib, əsər, qəhrəman
**Ключевые слова:** трагедия, пьесы, драма, история, жанр, писатель, работа, герой
**Key words:** tragedy, plays, dramatic, history, genre, writer, work, hero

Anarın dramaturq şöhrəti nasir şöhrətini üstələməsə də, onun "Ötən ilin son gecəsi", "Evləri köndələn yar" pyesləri uğurlu teletamaşa, "Təhminə və Zaur" pyesi isə keçən əsrin səksəninci illərində akademik Dövlət Dram Teatrında uğurlu səhnə həyatı yaşamışdır.

Ədibin dramaturgiyada uğurları sovet dönəmi ilə bağlı olmuş, müstəqillik dövrü dramaturji prosesində isə demək olar ki, iştirak etməmişdir. Anarın artıq bu janrın meydanından çəkildiyini düşünərkən onun ədəbi ictimaiyyətə ötən il yeni bir pyes təqdimi həm bir qədər təəccüb, həm də maraq oyatdı. Uzun zaman fasiləsindən sonra Anarı bu janra qayıtmağa vadar edən nə idi, yaxud bu qayıdış bizə nə vəd edirdi? Etiraf edim ki, məni Azərbaycan jurnalının 2019-cu il oktyabr sayında çap olunmuş "Şəhərin qış gecəsi" pyesini oxumağa sövq edən ən başlıca səbəb içimdə doğan bu suallara cavab tapmaq istəyi oldu.

Anar keçən əsrin səksəninci illərində həyatını izlədiyi "Şəhərin yay günləri" pyesinin qəhrəmanlarının taleyinə şəhərin bir qış günündə dönmüşdü. Amma bu qış günü sıradan bir gün deyildi. O gün idi ki, onun soyuq qış axşamı xalqımızın qan yaddaşına çevrildi, 20 Yanvar tarixi isə əbədi yanğı tariximizə. "Şəhərin yay günləri" pyesinin personajları yenidən səhnəyə "Şəhərin qış gecəsi"ndə bu tarixdə yaşanan milli faciəmizin qəhrəmanları kimi gəldilər. Amma burada faciə qəhrəmanı özünün ədəbi-nəzəri mənasında deyil, yəni pyesin personajları tragik qəhrəman statusunda çıxış etmirlər. Onu da qeyd edək ki, faciə faktı heç də faciə janrını yaratmaq şərtini irəli sürmür. Qanlı 20 Yanvar hadisəsinin fəci mahiyyəti məlumdur, ona görə də bu faciəni yaşayanlar səhnəyə tragik yox, dramatik qəhrəman kimi çıxırlar. Və Anar da "Şəhərin qış gecəsi" əsərində bu faciənin şahidlərinin və şəhidlərinin həyat dramını səhnələşdirmişdir.

20 Yanvar faciəsi yaxın keçmişdə baş verməsinə baxmayaraq, müasir ədəbiyyatımızda özünün bədii çözümünü az tapmışdır. Bu mövzuda ən yaxşı əsər hələ də Bəxtiyar Vahabzadənin "Şəhidlər" poeması olaraq qalmaqdadır. Ümumiyyətlə, 20 Yanvar faciəsi daha çox lirikanın mövzusuna çevrilmişdir. "20 Yanvar mövzusu bütün 1990-cılar boyu milli ədəbiyyatda məhz bu çalarlarda – bir yandan ağrı, fəryad, haray tonallığında, digər tərəfdən qəhrəmanlıq, hünər, iftixar mücəssəmi olaraq lirikanın predmeti olur". (1, s. 91)

Bu tarixi hadisə dramaturgiyamızda Tamara Vəliyevanın "Mənim ağ göyərçinim" pyesində mövzuya çevrilmişdir. Və bu əsər iki mininci illərdə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında səhnə ömrü qazanmışdır. Onu da qeyd edək ki, "Mənim ağ göyərçinim" pyesi 20 Yanvar faciəsinə iki gəncin məhəbbəti fonunda duyğusal acıdan yanaşmış, yəni bu pyes faciənin tarixi mahiyyətini bədii təhlil müstəvisinə gətirməmiş, daha doğrusu gətirmək məqsədi

daşımamış, sadəcə nakam məhəbbət motivasiyasından istifadə edərək tamaşaçını 20 Yanvar hadisəsinin fəciliyinə kökləmək istəmişdir. “Şəhərin qış gecəsi” pyesi isə 20 Yanvar faciəsinin tarixi, siyasi tərəflərinə çözüm verməyə çalışır. Anarın həmin hadisənin yaşandığı tarixi dönəmdə siyasi hadisələrin yaxından müşahidəçisi olması ona kifayət qədər bilgi verdiyi kimi, həm də qarşısında bir mənəvi öhdəlik qoyurdu. Yazıçı sanki faciənin 30 illiyi ərəfəsində - ömrünün qürub çağında bu bilgilərini paylaşaraq mənəvi borcunu yerinə yetirmək istəmişdir. Ədib bilgilərini anlatmaq, mövzunu çözmək üçün siyasi və sıravi dairələrdən olan vətəndaşları personaj kimi pyesə daxil etmişdir.

Pyes respublikanın baş prokurorunun müavini Şamxal Bədirzadənin iş otağında 20 Yanvar faciəsi ərəfəsində xalq azadlıq hərəkatı ilə bağlı dövlət tədbirlərinə həsr olunmuş qeyri-rəsmi bir toplantının iştirakçılarının mükalimәsi ilə başlayır. Moskvanın ağır təzyiqləri ilə xalqın qəti tələbləri arasında qalan hökuməti təmsil edən Şamxal Bədirzadə Moskvanın meydan hərəkatı ilə bağlı planlarını öyrənmək üçün oradan yeni qayıtmış böyük nüfuz sahibi akademik və deputat Bəhram Zeynallını, elmi işçi Çopur Cabbarı və universitet müəllimi Sədyarı kabinetinə dəvət etmişdir.

Müəllif gələcək hadisələr üçün giriş olan bu səhnədəcə bizə həmin mühitin panoramını yaratmaq istəmişdir. Şamxal Bədirzadə dövrün hökumət orqanlarını, Bəhram Zeynallı, Çopur Cabbar, Sədyar isə onların yanında olan ziyalıları təmsil edir. Dramaturq Şamxal Bədirzadənin simasında vurğulamaq istəyir ki, hakimiyyət qorxu içindədir: o, Moskvanın nə edəcəyini, xalq hərəkatının isə onu haraya götürəcəyini bilmir. Əsərdə çox kiçik detallarla hakimiyyətin bu əndişəsi tamaşaçı üçün rəsm edilmişdir. Telefon zəngi bu cür ağır təfərrüatı ifadə etmək üçün dramaturq tərəfindən çox yaxşı düşünülmüş detaldır. Belə ki bu detal vasitəsilə təsvirlərdən qaçmaq, səhnə mizanını yığcamlaşdırmaq, eyni zamanda tamaşaçı diqqətini səhnəyə pərçimləmək mümkün olur.

Şamxal Bədirzadənin iş telefonuna Mərkəzi Komitədən və Moskvadan gələn zənglər xalq hərəkatı dalğasının yalnız respublika deyil, həm də İttifaq hakimiyyətinin canına qorxu saldığını vurğulayır. Bununla Anar oxucusuna demək istəyir ki, 90-cı ilin meydan hərəkatı başıpozuq kütlə, təsadüfi axın deyil, Sovetlər İttifaqı kimi dünyanın ən böyük güc dövlətinin imperialist maraqlarına qarşı gedən milli azadlıq hərəkatı idi. Müəllif həm də onu vurğulayır ki, bu hərəkat milli şüurun elə özündə də heç də bütün hallarda azadlıq hərəkatı kimi dəyərləndirilib dərk olunmur. Şamxal Bədirzadənin otağı tamaşaçı üçün bu hərəkata müxtəlif baxış rakurslarını ortaya qoyur. Şamxal Bədirzadəyə görə xalq hərəkatı rəhbərləri avantrüristdir, elmi ictimaiyyəti təmsil edən Çopur Cabbar isə xalq hərəkatını kütlə, qara camaat kimi dəyərləndirir. Anar bu səhnədə elə Çopur Cabbarın dilindəcə vurğulayır ki, bu cəmiyyətdə hələ insanlar “qatı millətçi, pantürkist, Türkiyə heyranı” kimi stalinizim ideologiyasının ittihamları ilə damğalanır. Dramaturq bununla göstərmək istəmişdir ki, dövrün ziyalı kütləsi bütövlükdə heç də azadlıq hərəkatını dəstəkləmir, elmi düşüncə milli maraqlardan çıxış etmir və hətta milli azadlıq hərəkatı ilə mübarizədə Stalinin həsrətini çəkir.

Dramaturq pyesdə Azərbaycan ziyalısı və Azərbaycan xalqının azadlıq hərəkatı məsələsini də çözməyə çalışmışdır. İlk səhnə bu məsələni oxucuya qismən çözülür. Oxucuda bu fikir hasil olur ki, dövrün böyük ziyalı kütləsi milli azadlıq hərəkatının önündə deyil, bu hərəkatı susdurmaq istəyən SSRİ bürokratiyasının istəkləri arxasınca gedir. Pyesin tamaşa variantından sonra Şahanə Müşfiq yazır: “Əsərdə həmin dövr insanlarının mənəvi-psixoloji gərginliyi ifadə olunur. Tamaşanın ideyası belə şərh oluna bilər: bütün zamanlarda ziyalı mövqeyi ön planda olub. Hansı zamanda ki, kütlə və ziyalı arasında uçurum yaranır, o zaman uğursuzluq qaçılmazdır. Müəllif bəzi yerlərdə tarixi faktları da göstərir. Belə ki, həmin dövrdə beş nəfər Azər-

baycan ziyalısı, deputatı Moskvaya gedir, Qorboçov və həmin dövrdə SSRİ idarəçiliyindəki digər insanların qəbulunda olurlar. Orada onlara dolayı yolla xəbərdarlıq edilir ki, Azərbaycanda etiraz aksiyaları səngiməsə, qırğın törədiləcək". (2)

Əsərdə xalqdan ayrı düşən ziyalı obrazı bədii hərəkət xəttində daha aktiv şəkildə görünsə də, xalqın yanında olan Azərbaycan ziyalısının obrazı da bu xətdə yer almışdır. Qiyas Zeynallı pyesdə dövrün ziyalısını məhz bu aspektdən təmsil edir. Onu da qeyd edək ki, Anar bu obrazın yaradılmasında, onunla bağlı həqiqətlərin oxucuya çatdırılmasında yalnız bədii sözün gücünə arxayın olmamış, tarixi-faktiki detallara da müraciət etmişdir. 20 Yanvar faciəsi baş verməzdən əvvəl respublikadakı vəziyyətlə bağlı Arif Məlikovun, Tofiq İsmayılovun, Xudu Məmmədovun, Anarın narahatlığını ifadə edir, faciənin səhəri günü Ziya Bünyadovun, Bəxtiyar Vahabzadənin, İsmayıl Şıxlının, Yusif Səmədoğlunun, Xəlil Rza Ulutürkün xalq qarşısında çıxışlarını səsləndirir, ulu öndər Heydər Əliyevin günahsız qurbanlar vermiş xalqına müraciətinin mətnindən bir parça verir.

Əsərdə vurğulanan məqamlardan biri də odur ki, meydan hərəkatı yalnız milli azadlıq uğrunda mücadilənin məkanı deyil, həm də populist çıxışlar üçün məqamdır. Müəllif dövrün populizm dalğasını Çopur Cabbarın Azadlıq meydanında xalq qarşısında etdiyi çıxışın hər detalında göstərməyə çalışır.

"Əziz soydaşlarım, qəhrəman millətimin qəhrəman övladları, ulu Boz qurdun igid balaları! Bəsdir, Qorbaçovun yalan vədlərinə aldandıq. (gurultulu alqışlar). Əfsus ki, hələ də əsl düşmənlərimizin, əsl dostumuzun kim olduğunu bilməmişik. Qorbaçov bizə gün ağlayacaq?

Ümidimiz, pənahımız yenə qardaş Türkiyədir (gurultulu alqışlar). Canımız, qanımız türk qanıdır. Amma özümüz də papaq altda qalan deyilik. Hanı bizim qoç Koroğlumuz, Misri qılıncıyla Zori Balayanların qulağını kəssin. Hanı bizim Babəkimiz, Vazgenin qulağını bursun..." (3, s.8)

Anar milli azadlıq pafosunda yaranan populist poeziyanın məzmun üslub xəttini Sədyar müəllimin mitinq iştirakçıları qarşısında söylədiyi şeirdə ümumiləşdirir.

Ana vətən Azərbaycan,
Bir canım var sənə qurban.
Bağların var, dağların var,
Şəhidlərin, sağların var.
Keçən illər, keçən aylar,
Ayıramaz bizi çaylar,
Nə Astara, nə də Araz.
Lap yaxında qovuşarıq,
Ya bu qış, ya da bu yaz.
Danışmayın hərzə-hədyan,
İgidlərlə dolub hər yan.
Azadlığa aparacaq
Bizi bu möhtəşəm meydan. (3, s.7)

Qiyas Zeynallın xalqın azadlıq harayı ilə manipulyasiya edən bu cür tiplərə qarşı duran həqiqi ziyalı obrazıdır. Ona görə də onun nitqi fərqli ampuladadır, gurultusuz, parıltısızdır. "Əziz qardaşlarım, bura nə bəlağətli nitqlər meydanıdır, nə də şeir məclisi". (3, s.9) Qiyas Zeynallının nitqi meydanı populizm dalğasından qurtarıb məqsədyönlü xalq hərəkatı yönündə istiqamətləndirməyə çalışır.

Əsərin siyasi xətti güclüdür. Qiyas Zeyanllının 20 Yanvar faciəsinin qurban olacaq oğlu Namiqin həyat dramı əsərə lirik-psixoloji ovqat qatsa da, bu siyasi xəttə qalib gələ bilmir. Bu xətt əsərdə sona qədər öz dominantlığını saxlayır. Onu da qeyd edək ki, Namiqin həyat dramı səhnəyə dramatik yaşantılarda deyil, bədii nəqletmədə çıxır. Bu nəqletmə dramatik gərginliyi səngitsə də, Namiqin həyat dramı fonunda onun şəhidlik faciəsi daha da dərinləşir. Amma əsərdə müəllifin oxucunu bu faciənin notlarına kökləmək məqsədi yoxdur. Anar canlı şahidi kimi dövrün gerçək mənzərəsini günün oxucusuna çatdırmaq istəmişdir. Bu mənzərədə müəllif natural təsvirlərə qədər gedir.

Qiyas Zeynallının həyat yoldaşı Dilarə xanımın ad günü məclisində bir araya toplaşan ziyalıların söhbətlərində SK-da Primakovun, Girenkonun qəbulunda olan azərbaycanlı deputatlara Bakıda fövqəladə vəziyyətin elan olunmayacağı, şəhərə qoşun yeridilməyəcəyi ilə bağlı söz verildiyini tarixi bir fakt kimi oxucuya çatdırır. Ümumiyyətlə, pyesdə informativlik güclüdür, hətta bəzən onun bədiiliyini belə üstələyir. Müəllif sanki 20 Yanvar faciəsi haqqında yalnız səhnə yox, həm də sənədli əsər yaratmaq istəmişdir. Xüsusilə də, pyesin son səhnələri bu faciədən reportaj xarakteri daşıyır.

Anarın bu reportajı, ümumilikdə isə pyesi ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişindən sənədli kadrlarla yekunlaşdırması da təsadüfi deyildir. Pyesin motivasiyası “20 Yanvar faciəsi niyə və hansı şəraitdə baş vermişdir?” sualı üzərində qurulmuşdur. Əsərin Heydər Əliyevin obraz ilə sonlanması bu suala ən yekun cavabdır. Bu cavab vurğulayır ki, Heydər Əliyevin hakimiyyətə gəlişi Azərbaycan xalqını öz maraqlarının qurbanına çevirən xarici düşmənlərə qarşı sipər və onu bu düşmənlərdən qoruya bilməyən səriştəsiz rejimlərdən xilasıdır. O da düzdür ki, bu cür səhnələr dramatik kanonlara uyğun deyil və daha çox sənədli hekayə janrına uyur. Ancaq müəllifi bu əsərdə janrın tələblərindən daha çox mövzunun tələbləri düşündürmüşdür. Ona görə də pyesdə dramaturq bir neçə məqamda bu faktı oxucusunun diqqətinə çatdırır ki, rəsmi Moskva Azərbaycanda heç bir hərbi gücün tətbiq olunmayacağı ilə bağlı çox mötəbər kürsülərdən dönə-dönə söz vermişdi. Moskvanın bu yalan vədi pyesin son səhnəsində Yusif Səmədoğlunun nitqində bir daha tarixi fakt kimi vurğulanır.

Pyesdə bədii xəttə çıxarılan fikirlərdən də biri odur ki, 20 Yanvar faciəsinin törədilməsində erməni fitvasının barmağı vardır. Həm də ədib erməni fitnəkarlığına Namiqin həbsxana hekayəsindən işarə vurur, həbsxana rəsisinin müavini Ambaryanın türkə nifrəti, Namiqi cəzalandırmaq üçün fürsət güdməsi məhz bu məqsədlə əsərə daxil edilmiş detallardır. Əsərdə erməni fitnəkarlığı xətti Moskvanı Azərbaycana qarşı qaldırmaq cəhdləri üzərində davam etdirilir. Qonşusu Əjdər kişi tərəfindən qəzəblənmiş kütlədən qorunub özü sağ-salamat Moskvaya yola salınan, babası Qurgen isə Qiyas Zeynallının evinə sığınan Surenin mərkəzi televiziyaya verdiyi bakılıların ünvanına iftira dolu müsahibəsi Bakıya qoşun yeridilməsi qərarında erməni fitvasının rolunu vurğulayır. Müəllif oğlu Namiqin şəhid olması xəbərini alan Dilarə xanımın dili ilə 20 Yanvar faciəsinin törədilməsində erməni fitnəkarlarını ittiham edir. Qurgenin Qiyas Zeynallının evində intiharı isə bu fitnəkarlığın etirafı və əsərin ən dramatik məqamıdır.

“Şəhərin qış gecəsi” pyesi müstəqillik dövrü dramaturgiyamızın otuz illik dönəmində yeni bir hadisə olmasa da, 20 Yanvar faciəsinin otuz illiyi üçün əlamətdar idi, belə ki, bu pyes Azərbaycan teatrına bu faciənin otuz illik tarixini səhnədə də qeyd etmək imkanı verirdi. Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı bu imkandan istifadə edərək 18 yanvar 2020-ci ildə “Şəhərin qış gecəsi” tamaşasının premyerasını keçirdi. Bu premyera həm faciənin otuz illik tarixi ərəfəsində əlamətdar, həm də müasir dramaturgiyanın müasir səhnə ilə zəifləyən əlaqəsinin canlanması üçün isə əhəmiyyətli idi.

**Məqalənin aktuallığı.** Pyesdə Azərbaycan ziyalısı və Azərbaycan xalqının azadlıq hərəkatı

məsələsini də çözməyə çalışmışdır. Əsərdə xalqdan ayrı düşən ziyalı obrazı bədii hərəkət xəttində daha aktiv şəkildə görünsə də, xalqın yanında olan Azərbaycan ziyalısının obrazı da bu xətdə yer almışdır. Bu eyni zamanda məqalənin aktuallığını göstərir.

**Məqalənin elmi yeniliyi.** "Şəhərin qış gecəsi" pyesi müstəqillik dövrü dramaturgiyamızın otuz illik dönəmində yeni bir hadisə olmasa da, 20 Yanvar faciəsinin otuz illiyi üçün əlamətdar idi, belə ki, bu pyes Azərbaycan teatrına bu faciənin otuz illik tarixini səhnədə də qeyd etmək imkanı verirdi. Bu həm də məqalənin elmi yeniliyini səciyyələndirir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən magistrant, doktorant və dissertantların elmi işlərində istifadə oluna bilər.

## Ədəbiyyat

1. Həbibbəyyli İ., Əlişanoğlu T. Qanlı Yanvardan başlanan yol. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı. 2 cilddə, I c., Bakı: Elm və təhsil, 2016, 800 s., (s. 86-57)
2. M.Şahanə. Qanlı Yanvarın ağrıları "Şəhərin qış gecələri"ndə. "525-ci qəzet", 22. 01.2020.
3. Anar. Şəhərin qış gecəsi. Azərbaycan, 2019, № 10, səh. 3-30.

**Л.Н. Аллахвердиева**

## Драматическое разрешение национальной трагедии

## Резюме

В статье исследуется идейно-тематическая направленность пьесы Анара «Зимняя ночь города». Совершается экскурс в прошлое драматургического творчества Анара, что связано с фактом повторного обращения к жанр у писателем в период независимости. Призыв Анара к этому историческому событию в жанре драмы накануне тридцатой годовщины трагедии 20 января рассматривается с точки зрения сценического опыта и возможностей. Основной целью пьесы является изучение идейно-тематической направленности произведения и потому тема в статье рассматривается в историческом контексте. Раскрываются художественные приемы, использованные автором для идейно-содержательного решения пьесы, исследуются исторические факты и реалии, связанные с трагедией 20 января, нашедшие отражение в ее художественном содержании. Делается вывод о том, что пьеса имеет сильное историко-политическое содержание, что иногда делает художественную сторону произведения слабой. В целом, художественное содержание пьесы основано на драматической напряженности, художественном повествовании и информативности.

**L.N. Allahverdiyeva**

## A dramatic solution of our national tragedy


### Summary

The article explores the ideas and themes of Anar's "Winter Night of the City". An excursion to the past of Anar's dramaturgy followed by a re-appeal of the writer to this genre in the period of independence after a long interruption remains a mater in the spotlight. On the eve of the thirtieth anniversary of the "January 20" tragedy, Anar's appeal to this historical event in the drama genre is solved in terms of stage experience and capabilities of the theme. As the exploration of the ideas and themes of the work is the primary purpose of the play, the approach to the theme is based on the historical context of the period. The literary techniques applied by the author for solution of ideas and content are being revealed and the historical facts and facts related to the January 20 tragedy are being explored in the artistic context. It is concluded that the play has a strong historical and political content, which sometimes weakens the artistic essence of the play. In general, the artistic content of the play is based on dramatic tension, artistic transmission, and in formativeness.


**Redaksiyaya daxil olub:** 10.02.2020